**Azərbaycanlı fəalların Şuşa ərazisində keçirdikləri və hələ də davam etməkdə olan aksiya nəticəsində Laçın dəhlizinin bağlanması və bununla da Qarabağdakı ermənilərin Ermənistanla əlaqələrinin kəsilməsi İrəvanda böyük əks-səda doğurub. İndi ölkənin siyasi dairələri bu məsələyə daha dərindən köklənibər. Təbii ki, bu kökləniş heç də pozitiv əhəmiyyət daşımır. Əksinə, görünür, ermənilər, daha doğrusu, ölkənin siyasi rəhbərliyi mövcud durumdan nəticə çıxarmaq niyyətində deyil.**

# Laçın dəhlizi və Ermənistanın "şivən ritorikası"

## *İrəvan "soyqırımı" məntiqini işə salıb*

Əvvəla, ondan başlayaq ki, aksiyaya toplaşmış azərbaycanlı fəalların iki konkret tələbi var. Birincisi, Qarabağdakı Rusiya sülhməramlılarının komandanı, general-mayor Andrey Volkov əraziyə gəlsin. İkincisi, bölgədə ekoloji terrora son qoyulsun, Azərbaycan nümayəndələrinin faydalı qazıntı yataqlarına baxışı təmin edilsin. Yəni kifayət qədər normal, yerinə yetirilməsi mümkün olan tələblərdir. O anlamda ki, həmin ərazilər hüquqi cəhətdən Azərbaycana məxsusdur və ölkəmizin ekspertlərinin ora getmək ixtiyarı həm də beynəlxalq hüquq normalarına uyğundur. Əksinə, buna yol verilməməsi hüquqa ziddir.

**(ardı 6-cı səhifədə)**

# Laçın dəhlizi və Ermənistanın “şivən ritorikası”




(əvvəli 1-ci səhifədə)

Ermənistanın siyasi rəhbərliyi, ümumən, siyasi cameəsi bu iki məsələni nəzərə almaq yerinə, azərbaycanlıların Qarabağda etnik təmizləmə siyasəti, soyqırımı aparmaq istədiklərinə dair haray-həşir salıblar. Ölkədə bir adam da demir ki, Azərbaycanın istədiyini edək. Yaxud, obrazlı desək, çaqqal sürüsünün ulaşması onların səsini batırır. Hərçənd Bakının tələbini yerinə yetirməyi qəbul edən şəxsin baş nazir Nikol Paşinyan olduğunu bildirənlər də var. Bunlar ölkənin müxalifət təmsilçiləridir. O müxalifət ki, Rusiyanın təsiri altındadır.

Bəli, o müxalifət iddia edir ki, Paşinyan Azərbaycanın tələbi ilə Qarabağdakı ağır texnikanı ərazidən çıxarıb. Bunu rüsvayçılıq kimi göstərir. Əks düşərgə, eyni zamanda, bildirir ki, bu, Azərbaycan Prezidenti İlham Əliyevin Laçın dəhlizi vasitəsilə Qarabağa silah-sursat daşındığını vurğulamasından sonra olub. Bu cinahın təmsilçiləri onu da bildirirlər ki, Prezident Əliyevin fikirləri Laçın dəhlizinin bağlanacağının anonsu idi və indi, bu, baş verir.

Bu arada baş nazir N.Paşinyan ölkənin Təhlükəsizlik Şurasının növbədənkənar iclasını çağırıb. İclasda şuranın üzvləri ilə yanaşı, respublika prezidenti Vaan Xaçaturyan, parlamentin sədri Alen Simonyan, baş nazirin aparat rəhbəri Arayik Arutyunyan, hakim “Vətəndaş sazişi” partiyasının parlamentdəki fraksiyasının rəhbəri Hayk Konjoryan iştirak ediblər. Erməni mediası bildirir ki, onlar regionda baş verən prosesləri, xüsusilə Laçın dəhlizindəki vəziyyəti müzakirə ediblər. Müzakirənin detalları açıqlanmayıb.

Bəli, əvvəldə də bildirdiyimiz kimi, Ermənistanda Laçın dəhlizi böhranı ilə bağlı diskussiyalarda başlıca xətt, guya, azərbaycanlıların soyqırıma hazırlaşmalarının bildirilməsidir. Bu kontekstdə xüsusi həyasızlıq elementləri nəzərə çarpmaqdadır. Həyasızlığa birinci başlayan Qarabağdakı separatçı rejimin rəhbəri Araik Arutunyandır. Hiss olunur ki, Arutunyanı Ermənistan siyasi dairələrində sayan yoxdur. Ona görə verdiyi açıqlamalarda daha çox özünə fokuslanır. Elə fon yaradır ki, guya, baş verənlər onun Fransaya bu günlərdə gerçəkləşmiş səfəri ilə bağlıdır.

Əlbəttə, İrəvanda belə iddiada olan yoxdur. Ümumiyyətlə, İrəvan üçün Araik, demək olar, tam yoxdur. Nəinki o yoxdur, o biri separatçı, Rusiya maşası Ruben Vardanyan da yoxdur. İkinci sanki qeybə çəkilib. Yəqin, yaranmış durumun baiskarının birbaşa özü olduğunu anlayır. Yada salaq ki, dekabrın 11-də aksiya keçirərək, Azərbaycan məmurları və ekspertlərinin qarşısını kəsib, onların faydalı qazıntı yataqlarına doğru hərəkətinə maneçilik törədən məhz Vardanyan olmuşdu. Həmin etiraz aksiyasını o hazırlamışdı. Yeri gəlmişkən, azərbaycanlı fəalların Şuşa–Xankəndi yoluna toplaşmaları da bundan sonra baş vermişdi. Odur ki, Vardanyanın susması təbiidir. Əlbəttə, bir müddət əvvəl vətəndaşlığından imtina etdiyi Rusiyaya qayıtsa, daha yaxşı olar. Özünün biznesmen təfəkkürü ilə Rusiyada ona “ümid bəsləyənlərin” etimadını doğrulda bilmədi.

Soyqırımı cəfəngiyyatına gəldikdə, bildirək ki, mövcud istiqamətdə “canfəşanlıq” edənlərdən biri Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyandır. O, özünün tvitter səhifəsində əməlli başlı vay-şüvən qopardıb.

Bu arada Ermənistan Xarici İşlər Nazirliyi də Laçın dəhlizindəki vəziyyətlə bağlı bəyanat yayıb. Bu bəyanat Marukyanın tvitter ağlaşmasının nisbətən mədəni variantı olsa da, cəfəng notlarla doludur. İlk cəfəngiyyat isə budur ki, sanki Laçın dəhlizindən istifadə Ermənistanın qanuni haqqıdır. Ermənistan XİN dəhlizin bağlanmasını böyük hüquq pozuntusu kimi təqdim edir.

Başdan ayağa taftalogiya üzərində qurulmuş sənəddə, həmçinin, dəhlizin Rusiya sülhməramlılarına aid olduğu fərziyyəsi üzərində dayanılır. Ən əsası isə belə rəy formalaşdırılır ki, bir növ, Rusiya sülhməramlıları öz işlərinin öhdəsindən gələ bilmirlər. Mövcud xüsusda beynəlxalq ictimaiyyətdən kömək istənilir. Göründüyü kimi, Paşinyan administrasiyası bu məsələni də anti-Rusiya təbliğatına çevirir. Anti-Azərbaycan təbliğatı da öz yerində.

Ermənistan XİN-in mövcud durumdakı ən gülməli məntiqi isə 10 noyabr 2020-ci il Bəyanatının fərqli interpretasiyasıdır. Belə təsəvvür yaradılır ki, guya bu bəyanata əsasən Laçın dəhlizi Ermənistanın Qarabağla əlaqəsini təmin edən hansısa əlahiddə statuslu ərazidir. Halbuki Azərbaycan həmin bəyanat üzrə Qarabağı Ermənistanla birləşdirən yolun inşasını başa çatdırıb. Bu isə o deməkdir ki, ölkəmiz öz vətəndaşları olan ermənilərin adını daşıdıqları millətin dövləti ilə əlaqələrini təmin edib. Öz ərazisindən yolu çəkməyən isə Ermənistandır. Belə nəticəyə gəlmək mümkündür ki, İrəvan Qarabağ ermənilərini düşünmür. Əlbəttə, düşünmür, sadəcə, məsələ düşünüb-düşünməməkdə deyil. Məsələ Paşinyan administrasiyasının spekulyativ yanaşmasında, vaxtı uzatmasında, öhdəlikləri yerinə yetirmək istəməməsindədir.

Ermənistan XİN-in gəlişigözəl ifadələrlə bəzədilmiş bəyanatında, eyni zamanda, BMT Təhlükəsizlik Şurası bir yana, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə müraciət ünvanlanması həyasızlığın ən son həddidir. Elə bil, BMT-nin Azərbaycan torpaqlarının işğalının dayandırılması ilə bağlı 4 qətnaməsini 30 ilə yaxın müddətdə saya salmayan, ATƏT-in Minsk qrupunun fəaliyyətini iflic etmiş Ermənistan deyil.

Bəyanatda Qarabağ ermənilərinin hüquqlarını və təhlükəsizliyini təmin etmək üçün beynəlxalq mexanizmlərin işə salınmasının və ya yenidən işə salınmasının zəruriliyinin, beynəlxalq tərəfdaşlarla məsləhətləşmələrə başlanılacağının vurğulanması isə daha çox daxili ictimai rəyə hesablanmış fikirlərdir. Sanki Ermənistan hökuməti nə isə edə bilər kimi fon yaradılır. Məlumdur ki, Paşinyan administrasiyası mövcud durumda heç nə edə bilməz. Ermənistan bütün beynəlxalq dayaqlardan məhrum vəziyyətdədir. Bunu ölkənin siyasi rəhbərliyinin, ümumən siyasi dairələrinin anlaması vacibdir. Özü də nə qədər gec deyil.

**Ə.CAHANGİROĞLU,**
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 14 dekabr.- S.1;6.